

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

14 oktyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 39 (3552)

# ÖLKƏMİZ REGİONDA SÜLHÜN QARANTIDIR

İkinci Qarabağ müharibəsindəki zəfərlə Azərbaycan regiona sabitlik gətirdi. Bu qələbəylə onilliklər boyu ermənilərin yaratdığı miflər darmadağın edildi. BMT-nin məlum qətnamələrinin yerinə yetirilməsini silah gücünə təmin etdik. Çünki ötən illər ərzində Ermənistan dünya birliyinin "işğala son" qoymaq mesajını qulaqardı edirdi...

Döyüş meydanında göstərilən əzmkarlıq, bu gün azad torpaqlarımızda aparılan bərpa-quruculuq işləri ilə davam etdirilir.

Tarixə öz möhürünü vuran qələbədən sonra ölkə başçımızın verdiyi vədlər sürətlə yerinə yetirilir. İşğaldan azad edilmiş ərazilər yenidən qurulur, evlər, inzibati binalar, məktəblər tikilir, yeni-yeni infrastrukturlar yaradılır. Ölkəmiz üçün yeni bir dövr başlanıb. Təkcə iqtisadi sahədə yox, eyni zamanda, siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənib ki, Azərbaycanın beynəlxalq arenada rolu daha da artıb.

Azad edilən ərazilərdə aparılan quruculuq işləri sülhə olan inamı da artırır. Çünki Qarabağın iqtisadi dirçəlişi təkcə ölkəmizin deyil, regionun iqtisadi inkişafına təkan verəcək.



Müharibədən sonra Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidən qurulması işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq. Həmçinin, burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməli qoyuldu; Suqovuşan və Talışa gedən avtomobil yolları açıldı. Bu yol Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq. Yolun ümumi uzunluğu 22 kilometr təşkil edir.

Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu"nun birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyuldu. Yük maşınlarının istehsalı üzrə dünyanın aparıcı şirkətlərindən olan "KamAZ"ın Cəbrayılda "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi ilə birgə servis mərkəzinin yaradılması Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Tatarıstan Respublikası ilə səmərəli qarşılıqlı əməkdaşlıq münasibətlərinin bariz göstəricisidir.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yaradılacaq regional servis mərkəzinin ümumi ərazisi 1,5 hektar olacaq. Ərazidə satış zalı, maliyyə xidmətləri şöbəsi, xidmət bürosu, menecer şöbələri, təmir zonası ustalarının ofisləri və ehtiyat hissələri anbarının yerləşəcəyi inzibati bina, yük avtomobillərinə və kənd təsərrüfatı texnikalarına xidmət üçün qulluq blokları, təmir sexləri, avtoyuma və dayanacaq fəaliyyət göstərəcək. Mərkəzdə "KamAZ" ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcək. Burada 36 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Cəbrayılda yarımstansiyanın, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılması, Rayon Mərkəzi Xəstəxanasının, Mehdi Mehdizadə adına tam orta məktəbin, çoxmənzilli yaşayış məhəlləsinin və Memorial Kompleksin təməlinin qoyulması geniş quruculuq fəaliyyətinə töhfə oldu.

Eləcə də Füzuli hava limanının tikintisinin qısa bir zamanda həyata keçirilərək istifadəyə verilməsi böyük siyasi və iqtisadi əhəmiyyət daşıdı. İşğaldan azad edilən ərazilərdə beynəlxalq hava limanı istifadəyə verməklə böyük qayıdışımızı və məqsədimizin yüksək səviyyəli həyat şəraitinin bərpa edilməsi olduğunu göstərdi. Ermənistan hava dəhlizinin açılmasının da siyasi və iqtisadi əhəmiyyəti vardır, çünki dövlətimizin regionda nəqliyyat kommunikasiyalarının açılmasına tam hazır olduğunu nümayiş etdirir və bütün sərhəd dövlətlərinin maraqlarına cavab verir.

Ölkə başçımızın azad olunmuş torpaqlarımıza hər səfəri yurd yerlərimizin bizim üçün nə qədər müqəddəs olduğunu bir daha isbatlayır.

Hər səfərini Zəfər yürüşü adlandıran Ali Baş Komandanımızın Hadrut qəsəbəsində yerli əhali üçün inşa ediləcək yeni məscidin təməlini qoyması, dini-mənəvi dəyərlərimizə sədaqət və torpaqlarımızın hər qarışının bizə əziz olduğunun göstəricisidir.

Bu gün Azərbaycan regionda sülhün qarantıdır.Vətən müharibəsi dövründə qızğın döyüşlərin getdiyi bir zamanda, münaqişə bitdikdən sonra da bölgədə sülhün qorunması üçün səylərini əsirgəməyən ölkə başçımız dövlətimizin siyasətini dünyaya bəlli etdi.

# MDB DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI KEÇİRİLİB

Oktyabrın 11-də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının onlayn formatda növbəti iclası keçirilib.

Tədbirdə üzv dövlətlərin Daxili İşlər nazirliklərinin əməkdaşlığının prioritet istiqamətləri və cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramların icra vəziyyəti barədə ümumi fikir mübadiləsi aparılıb, Şuranın terrorizm, ekstremizm, narkotrafik, mütəşəkkil cinayətkarlıq və insan alveri ilə mübarizədə geniş və əhatəli iş apardığı, qurumun MDB məkanında təcrübə və informasiya mübadiləsi istiqamətində də səmərəli fəaliyyət göstərdiyi vurğulanıb.

İclasda çıxış edən Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə uzlaşan vəzifələrə uyğun olduğunu qeyd edib, müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini bildirib.

V.Eyvazov qeyd edib ki, 2019-2021-ci illər ərzində Birlik üzvü olan ölkələrin DİN-lərinin aidiyyəti qurumları tərəfindən sıx işbirliyində yüzlərlə ağır cinayətlərin üstü açılıb, çoxsaylı mütəşəkkil transmilli kriminal qruplar zərərsizləşdirilib, təhlükəli cinayətkarlar tutularaq ekstradisiya olunub.

Birlik çərçivəsində tərəfdaşlığın kifayət qədər yüksək səviyyədə olduğunu qeyd edən nazir son iki il ərzində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə təxminən 4,5 ton narkotik vasitənin müsadirə edilməsinin Azərbaycan hüquq mühafizə orqanlarının bu istiqamətdə barışmaz mövqe sərgilədiyinin əyani sübutu olduğunu bildirib.

General-polkovnik V.Eyvazov son illər ölkəmizdə cinayətkarlıqla aparılan qətiyyətli mübarizənin müsbət nəticələri, ümumilikdə cinayətlərin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərin açılması, azalma tendensiyası, dövlətlərarası axtarışa verilən təqsirləndirilən şəxslərin tutulması, əlverişli kriminogen durum, ictimai asayişin qorunması sahəsində həyata keçirilən tədbirlər barədə danışıb, transmilli mütəşəkkil cinayətkarlığın yeni təhdid və çağırışlarına birgə səylərlə cavab verilməsinin zəruriliyini diqqətə çatdırıb.



Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

# ŞƏHİDLƏRİMİZİ ANIRIQ

## Anım mərasimləri davam edir...







Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunlarının daha iki hərbi qulluqçusunun anım mərasimi keçirilib.

Baş leytenant Kamran Kazımovun il mərasimində Daxili İşlər Nazirliyinin və Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri iştirak ediblər.

İkinci Fəxri xiyabanda torpağa tapşırılan şəhidin məzarı ziyarət olunub, önünə çiçək dəstələri düzülüb, ruhuna dualar oxunub. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

DİN Daxili Qoşunlarının hərbi qulluqçusu, baş gizir Rauf Süleymanovun da anım mərasimi keçirilib.

Qəhrəmanımızın doğulub boya-başa çatdığı Neftçala rayonunun Abasallı kəndində keçirilən anım mərasimində Daxili İşlər Nazirliyinin, şöbənin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyəti iştirak ediblər.

İştirakçılar şəhidin məzarını ziyarət edib, gül-çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra mərasim iştirakçıları Ordumuzun şanlı qələbəsindən, şəhidlərimizin keçdikləri döyüş yolundan danışıb, göstərdikləri şücaət və qəhrəmanlıqlardan söz açıblar. Nəzərə çatdırılıb ki, hər bir şəhid ailəsi, Vətən savaşında sağlamlığını itirmiş qazilərimiz ölkə rəhbərimizin diqqət və qayğısı ilə əhatə edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə DİN Daxili Qoşunların hərbi qulluqçusu, baş gizir Rauf Süleymanov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhid ailələri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Təcrübə mübadiləsi edirik

## Polis Akademiyası beynəlxalq proqrama qatılıb



26 sentyabr - 1 oktyabr tarixlərində Afina şəhərində Avropa İttifaqı Hüquq-Mühafizə Təlimləri üzrə Agentliyi (CEPOL) tərəfindən Şərqi Avropa ölkələrindən, o cümlədən Azərbaycandan olan nümayəndələr üçün "TOP-COP" layihəsi çərçivəsində mübadilə proqramı həyata keçirilib. **Tədbirdə ölkəmizi DİN-in Polis Akademiyasının Beynəlxalq əməkdaşlıq bölməsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov təmsil edib.**

Proqram çərçivəsində Yunanıstan DİN-in müvafiq qurumlarının rəhbərləri və təhsil müəssisələrinin məsul şəxsləri ilə faydalı görüşlər keçirilib. Görüşlərdə qarşı tərəfin təcrübəsi öyrənilməklə yanaşı Azərbaycanın müvafiq sahələr üzrə sahib olduğu təcrübə imkanları, habelə Azərbaycan DİN-in Polis Akademiyası barədə ətraflı məlumatlar təqdim edilərək, Akademiyanın yaranmasının 100 illik yubileyi ilə əlaqədar hazırlanmış videoçarx nümayiş etdirilib.

Keçirilən digər görüşlərdə insan alverinə qarşı mübarizədə qurbanların dindirilmə taktikası, dindirilmə iştirakçıları, habelə qurbanın dindirilmə otağının dizaynı və iştirakçıların davranışı kimi məsələlər müzakirə olunub.

Təcrübə mübadiləsi işgüzar və səmərəli şəkildə başa çatıb.

*"Polis"*

# Saxta COVID-19 pasportu satanlar saxlanıldı

**Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının yayılmasının və fəsadlarının qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxtda, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.**

Ölkə ərazisində vaksinasiya prosesi də sürətlə həyata keçirilir. Təəssüflər olsun ki, bəzi vətəndaşlar peyvənd olunma prosesindən yayınıb müxtəlif yollarla saxta COVID-19 pasportu əldə etməyə çalışırlar.

Vətəndaşlara saxta COVID-19 pasportu satan şəxslərin ifşa olunması istiqamətində də polis əməkdaşları uğurlu əməliyyatlar keçirirlər.

Bugünlərdə Göyçay Rayon Polis Şöbəsinə pul müqabilində vaksin olunmadan saxta COVID-19 pasportlarının verilməsi barədə əməliyyat məlumatı daxil olub. Məlumat əsasında bu qanunsuz fəaliyyətlə məşğul olmaqda şübhəli bilinən Göyçay Rayon Mərkəzi Xəstəxanasının işçiləri saxlanılıblar.

Araşdırmalar zamanı məlum olub ki, onlar qabaqcadan əlbir olaraq müraciət edən bəzi vətəndaşlara əlli, yüz manat qarşılığında vaksinasiyadan keçib peyvənd olunmalarını özündə əks etdirən saxta sənəd təqdim ediblər.

Faktla bağlı RPŞ-də tibb işçilərinin ümumilikdə neçə nəfərə saxta COVID-19 pasportu satmaları ilə bağlı əməliyyat-istintaq hərəkətləri davam etdirilir.

Qeyd edək ki, paytaxt ərazisində yerləşən bir neçə tibb müəssisəsində, eləcə də Abşeron, Ağcabədi, Lənkəran, Lerik və Göygöl rayonlarında da analoji fakt üzrə saxlanılanlar olub.

*T.Əlizadə*

# Onlar "Narkomaniyaya yox!" dedilər

**Azərbaycan Kooperasiya Universitetində "Narkomaniyaya yox deyirik!" mövzusunda tələbələrlə maarifləndirici görüş keçirilib. Görüşdə Bakı Şəhər Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin YYÇPİT bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılov, bölmənin əməkdaşları, eləcə də polis veteranları, Nərimanov Rayon Gəclər İdman İdarəsinin rəisi Nəcəf Novruzov və Universitetin pedoqoji heyəti iştirak edib.**





Tədbiri giriş sözü ilə açan Kooperasiya Universitetinin Beynəlxalq əlaqələr və təlim-tərbiyə işləri üzrə prorektoru, iqtisad elmləri doktoru professor Aygün Quliyeva narkomaniyanın ümumbəşəri bir bəla olduğunu, "ağ ölümün" genefondumuzu təhdid etdiyini, gələcəyimizi, gəncliyimizi zəhərlədiyini bildirib. Mütəmadi keçirilən maarifləndirmə tədbirlərini ən effektiv metod hesab edən A.Quliyeva polis əməkdaşlarının narkomaniyaya qarşı apardığı qətiyyətli mübarizənin təqdirəlayiq olduğunu vurğulayıb.

Bakı şəhər BPİ-nin İctimai Təhlükəsizlik İdarəsinin YYÇPİT bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova narkomaniyanın, narkotik vasitələrin və onların prekursorlarından istifadənin insanlara vurduğu maddi və mənəvi zərərlərdən danışıb. Qeyd edib ki, gəncləri bu bəladan qorumaq, onlarda sağlam həyat tərzini formalaşdırmaq üçün birgə mübarizə aparmalı, yeniyetmə və gənclər arasında maarifləndirmə işləri diqqət mərkəzində saxlanılmalıdır. Gələcəyin qurucuları olan məktəblilərin, tələbələrin, eləcə də onların valideynlərinin bu məsələdə daha həssas olmalarını deyən polis polkovnik-leytenantı K.Ələkbərova onların zərərli vərdişlərə meyl etməmələri üçün diqqətlərini təhsilə, idmana yönəltməyin vacibliyini nəzərə çatdırıb.

Görüşdə çıxış edən digər tədbir iştirakçıları əvvəli həzz və əyləncələrlə başlayan, sonu faciə ilə bitən narkomaniyanın sosial, fizioloji fəsadlarından danışıb, polis əməkdaşları tərəfindən təhsil ocaqlarında təşkil edilən bu cür tədbirlərin əhəmiyyətini qeyd ediblər.

Sonra Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyorları tərəfindən quruluşçu rejissoru Ayla Osmanova olan "Ağ ölüm" adlı bir hissəli tamaşa nümayiş etdirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Silah-sursat aşkar edilib




**İşğaldan azad edilmiş ərazilərdə silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktik tədbirlər davam etdirilir.**

Şuşa Rayon Polis Şöbəsi əməkdaşlarının Dövlət Təhlükəsizliyi Xidməti və Minatəmizləmə Agentliyi ilə birgə keçirdikləri növbəti tədbirlər zamanı şəhər və Daşaltı kəndi ərazisindən avtomat, 3 mina, 30 qumbara, 7 "Foqot" qurğusu, 12 qumbaraatan mərmisi, 6 minaatan mərmisi, 11 UZRQM partladıcısı, 7380 ədəd müxtəlif çaplı patron və digər döyüş sursatları aşkar edilib.



Tədbirlər Laçın rayonunda da həyata keçirilib. Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən düşmənin Xocavənd rayonu ərazisindəki tərk edilmiş mövqelərindən avtomat, 3 pulemyot, 9 əl qumbarası, 11 avtomat darağı, minaatanın nişangah qurğusu və 3500 ədəd müxtəlif çaplı patron tapılaraq aidiyyəti üzrə təhvil verilib.

# ARXA VƏ ÖN CƏBHƏDƏKİ QƏHRƏMANLAR

## Özləri cinayətkarlarla, övladları qəsbkarlarla mübarizə apardı

**Hər bir xalqın tarix qarşısında sınaq dövrü olur. Biz bu sınaqdan ötən il Qarabağ uğrunda başlayan Vətən müharibəsində alnıaçıq, üzüağ çıxdıq.**

Azərbaycanın daxili işlər orqanları yenə də bu taleyüklü, milli müqəddərat anında dövlətin əsas dayağına çevrildi. Ancaq bu dəfə əməkdaşlarımız yalnız şəxsi şücaətləri, əzmkarlıqları ilə önə çıxmadılar, bəziləri, hətta, yeganə oğul övladlarını ön cəbhəyə yola salmaqla, sözün əsl mənasında, taleyə meydan oxudular.

Arxa cəbhədə cinayətkarlıqla mübarizə aparan polislərin övladlarının düşmənlə mübarizədə ön səfdə yer alması, həm də ictimai mesaj idi. Yüksək çinli polis övladı da, fəhlə balası da eyni səngərdə işğalçının qarşısında, Ali Baş Komandanın əmrindəydi.

Özləri cinayətkarlarla, övladları isə qəsbkarlarla mübarizə aparan bu fədakar polis ailələrini tanıyaq, tanıdaq ki, tarix qarşısında haqları itməsin.

***DİN Baş Əməliyyat və Statistika İdarəsinin Statistika şöbəsinin rəisi, polis polkovniki Elxan Heybətovun oğlu*** Vətən müharibəsinin ilk günündən odlu-alovlu döyüşlərə atılıb. Onun oğlu Adil Heybətov Cəbrayılın, daha sonra Qubadlının azad olunmasında vuruşub. Dəfələrlə ölümlə üzüzə qalan Adil bu döyüşlərdən sağ çıxmasını möcüzə hesab etsə də, “ölsək şəhid, sağ qalsaq qaziyik” düşüncəsiylə vuruşduqlarını deyir.

Övladı Vətən müharibəsi iştirakçısı olan başqa bir həmkarımız ***Bakı şəhər BPİ şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovnik-leytenantı Fuad Dadaşovdur***. Ailənin yeganə oğul övladı olan Fərid Dadaşov Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub. Onun döyüşdüyü strateji yüksəkliklərin tutulması Kəlbəcərin düşməndən alınması demək idi. Müharibə bitəndən sonra cəbhənin bu istiqamətində döyüşmüş, Prezidentin



Adil Heybətov



Fərid Dadaşov



Məhəmməd Cəfərov

medalla təltif etdiyi hərbçilər arasında Fəridin də adı var.

Füzuli və Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşan Məhəmməd Cəfərov Tovuz hadisələrindən sonra müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi ordu sıralarında xidmətə başlayıb.

***Məhəmmədin anası, Bakı şəhər BPİ Kriminalistik Tədqiqatlar Şöbəsinin əməkdaşı, polis polkovnik-leytenantı Kəmalə Cəfərova*** deyir ki, oğlu ilk gündən ön xətdə düşmən istehkamlarının yarılması üçün əks-hücum əməliyyatlarına qatılıb. Oktyabrın 3-də ordumuzun növbəti həmləsində yaralanan Məhəmməd Cəfərovun hazırda reabilitasiyası davam edir.

***Bakı şəhər BPİ DYPİ-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədov da oğlu Pərvini ön cəbhəyə yola salmışdı.*** Daha doğrusu, Pərvin könüllü şəkildə döyüşə yollanmışdı. Pərvin özü deyir ki, atası dostları vasitəsilə xəbər tutub, onu yola salmağa gəlmişdi. Bircə onu dedi ki, get və həmişəki kimi başımızı uca elə. Ya şəhid olacaqsan, ya da torpaqlarımıza bayraq sancacaqsan.

O, Ağdam bölgəsində ön cəbhədə döyüşüb.

Məhəmməd Ələkbərovun valideynlərinin hər ikisi polis əməkdaşıdır. ***Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə və DİN Baş İnformasiya-Kommunikasiya İdarəsinin baş inspektoru, polis polkovniki Saleh Ələkbərovların övladıdır.***

Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Laçın rayonlarının azad edilməsində iştirak edib, medallarla təltif olunub. Yeri gəlmişkən, müharibə ərəfəsində polis polkovniki Saleh Ələkbərov da oğlu kimi döyüş bölgəsində olub, daha doğrusu, DİN rəhbərliyinin göstərişinə əsasən döyüş bölgələrinə ezam olunaraq xidməti vəzifələrlə bağlı müxtəlif tapşırıqlar icra edib.

***Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edən Musa Qurbanzadə Bakı şəhər BPİ Katibliyinin baş inspektoru, polis polkovnik-leytenantı Fəxrəddin Qurbanovun oğludur.*** O, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarının düşməndən təmizlənməsi əməliyyatlarına qatılıb.

Vətən müharibəsində 44 gün çəkən hərbi əməliyyatlarda vuruşan Musa düşmənin kapitulyasiyasından sonra da dövlət sərhədlərinin müəyyən edilməsi üçün müxtəlif tapşırıqlara cəlb edilib. Şərqi Zəngəzurda sərhədlərin, yüksəkliklərin düşmən postlarından təmizlənməsini onun təmsil olunduğu birlik həyata keçirib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

---

# POLİS ÖVLADININ NÖVBƏTİ UĞURU

**Bugünlərdə Osloda keçirilən dünya çempionatında sərbəst və yunan-Roma güləşi üzrə idmançılar güclərini sınayıblar.**




Ölkəmizi yunan-Roma güləşi üzrə Avropa çempionu və dünya kubokunun sahibi, Tokio-2020 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Rafiq Hüseynov təmsil edib.

82 kiloqram çəki dərəcəsində çıxış edən Rafiq ilk görüşündə Estoniya güləşçisi Ranet Kaljolanı asanlıqla məğlub edib. Növbəti görüşdə Qırğızıstan idmançısı Kalidin Asikeyev də təcrübəli güləşçimiz qarşısında tab gətirməyib. İsveçli dünya ikincisi və Avropa üçüncüsü Aleks Kessidislə qarşıdurma maraqlı anlarla yadda qalıb. İlk hissəni 0:6 hesabıyla rəqib A.Kessidis öz xeyrinə yazdırıb. Buna baxmayaraq, ikinci yarıda əsl əzmkarlıq nümayiş etdirən R.Hüseynov ona qalib gələrək yarımfinala vəsiqə qazanıb.



Finalın astanasında rusiyalı Adlan Akiyevlə qarşılaşan pəhləvanımız adını finala yazdırıb. O, türkiyəli Burhan Akbudaka da qalib gələrək dünya çempionu adını qazanıb.

Qeyd edək ki, Norveçdə keçirilən Dünya Çempionatı 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarına lisenziya xarakterlidir.

**Yeri gəlmişkən, Rafiq Hüseynov Azərbaycanın əməkdar məşqçisi, DİN-in İdman Cəmiyyətinin Təlim şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Radik Hüseynovun oğludur.**

---

# Qışa hazırlıq məqsədilə...







**Xidməti nəqliyyat vasitələrinin lazımi təchizatlarla təmin edilməsi, onların texniki qulluq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzindədir.**

Qışa hazırlıq məqsədilə Şəki Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasının həyətində xidməti avtomobillərə baxış keçirilib.

Polis Şöbəsinin rəhbərliyinin iştirakı ilə keçirilən baxış zamanı avtomobillərin mövcud vəziyyəti yoxlanılıb və aşkar edilmiş çatışmazlıqların tez bir zamanda aradan qaldırılması üçün aidiyyəti əməkdaşlara lazımi göstərişlər verilib.

Həmçinin, polis əməkdaşlarının idarə etdikləri şəxsi avtomobillərin saz vəziyyətdə olması, texniki baxışdan keçməsi, konstruksiya dəyişiklikləri edilib-edilməməsi, eləcə də sürücülük vəsiqələrinin etibarlılıq müddəti yoxlanılıb.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

---

# Ukraynadan gələn məktub

Birinci Qarabağ müharibəsində yeganə nizami qüvvə kimi vuruşan Azərbaycan Polisi idi. O savaşda neçə-neçə oğullarımız şəhid oldu. Onlardan biri də Muxtar Hədisovdur.

O, 1948-ci ildə Balakən rayonunun Tülü kəndində doğulub, orta məktəbi də həmin kənddə bitirib. Ukraynanın Nikolayev şəhərində polis nəfəri kimi daxili işlər orqanlarına qəbul olunub. Bir müddət sonra Vətənə qayıdaraq, Füzuli Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsində baş müfəttiş kimi xidmətə başlayıb. Düşmən torpaqlarımıza göz dikəndə, o da silaha sarılıb. 1991-ci ilin dekabrın 14-ü Hadrut istiqamətində gedən döyüşlərdə şəhid olub.

Tale sanki Muxtardan sonra onun ailəsindən tamam üz döndərir. Bu barədə şəhid polisin ömür-gün yoldaşı DİN rəhbərliyinə ünvanladığı məktubunda yazır ki, həyat yoldaşının ölümündən sonra 2001-ci ildə böyük oğlu Abdulla, iki il sonra isə kiçik oğlu Azər dünyasını dəyişib. “Qızım Təranə ilə tək qalmışdıq. Amma o da, bu il əməliyyat olunmasına baxmayaraq, ürək çatışmazlığından dünyasını dəyişdi”, - deyə qeyd edir.

Onun bu çətin vəziyyətində DİN rəhbərliyi dərdinə şərik olub, şəhid qızı Təranənin məzar daşının hazırlanmasında, həm maddi, həm də mənəvi dəstək göstərib.

Mövludə xanım hal-hazırda Ukrayna vətəndaşı olsa da, Vətəni Azərbaycanın diqqət və qayğısını daim hiss etdiyini, buna görə ömrünün sonuna qədər minnətdarlıq duyğusu ilə yaşayacağını bildirir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

---

# Monitorinqlər nəticəsində...

Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri 6-12 oktyabr tarixlərində Bakı şəhərində və respublika ərazisində 405 toy şənliyinin monitorinqini həyata keçiriblər.

Monitorinqlər 341 şadlıq sarayında, 64 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 80 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;



- 1 nəfər barədə material baxılması üçün məhkəməyə göndərilib;
- 890 nəfər “COVID-19” pasportu olmadığına görə şənliyə buraxılmayıb.

*N.Cavadov*

# KİBERCİNAYƏT: kim hədəfdir?

**İnformasiya təhlükəsizliyinin ən zəif nöqtəsi insan faktorudur. Məlumatsızlıq bizim zəif tərəfimizi üzə çıxarır və bundan kibercinayətkarlar məharətlə istifadə edirlər. Odur ki, ölkəmizdə də rast gəlinən kiberhücumların geniş yayılan bir neçə növünə bələd olmaqda fayda var.**



Bu təhlükələrdən biri ***“sosial mühəndislik”*** sayılır. Sosial mühəndislik – insanlarla qarşılıqlı əlaqədə olaraq onlardan məlumat toplamaqdır. Bu növün əsas amillərindən biri saxta profillərdən (başqa adla açılmış və ya hər hansı bir saxta şirkət, kampaniya və s.), virtual dostluq və tanışlıqdan istifadə edib sizi aldatmaqdır.

Etibarınızı qazanmış virtual “dostunuz” sizi müxtəlif saytlara yönləndirə və orada qeydiyyatdan keçmənizi istəyə bilər. Bu halda yönləndirilən saytın adına xüsusi diqqət yetirin, çünki hətta bir hərf dəyişməklə saxta sayt yaradıla bilər. Məsələn, ***www.facebook.com*** saytı əvəzinə, sizi özünün idarə etdiyi www. facabook.com saytına yönləndirə, orada yazdığınız şifrəni oğurlaya bilər.

***“Brute-forcing”.*** Bu hücum sizin hər hansı email hesabınıza (gmail, mail, rambler və s.) və ya digər hesabınızdakı şifrlər toplusuna edilən hücumdur. “Brute-force” hücumunu həyata keçirmək üçün xüsusi proqramlar vasitəsi ilə sizin istifadəçi (login-parol) olduğunuz hesaba müdaxilə edilir.

Ən çox sizə aid məlumatlardan, məsələn, ad, soyad, doğum tarixi, maşın nömrəsi, telefon nömrəsi və s. istifadə edərək əl ilə bir-bir və ya avtomatik şəkildə müxtəlif variantlarla hesabınızdakı şifrələr yoxlanılır. Bu texnika vasitəsi ilə şifrə (parol) tapılır. Buna görə də təhlükəsizlik üçün şifrələrinizin eyni olmamasına diqqət yetirin. Müxtəlif sosial şəbəkələrdə, maillərdə və ya digər hesablarınızda eyni şifrə istifadə etməyin. Sizin bir hesabınızın giriş login və şifrəsi oğurlandığı halda digər hesablar da həmin şifrə ilə silsilə kimi əldə ediləcəkdir. Məs: “Facebook” şifrəsi ilə “İnstagram” hesabının şifrəsi eynidirsə, biri aşkar edildiyi halda digəri də ələ keçəcək.

Deməli, ən çox rast gəlinən sizə aid məlumatları (ad, soyad, doğum tarixi, maşın nömrəsi, telefon nömrəsi) şifrə qoyarkən istifadə etmək doğru deyil. Eləcə də klaviaturada ardıcıl rəqəm, hərf, simvollardan istifadə etmək tövsiyə olunmur. Məsələn, qwerty, 123456, asdfgh...

Ən çox yayılmış kiberhücumlardan biri də ***“fişinq”***dir. Kibercinayətin xüsusi növü olan fişinq – balıq ovu deməkdir. Bu metod vasitəsi ilə istifadəçiləri aldadıb onların fərdi məlumatları oğurlanır. Haker sizi müxtəlif yollarla eyni olan, amma saxta hansısa sayta və ya digər resursa yönəltməklə apardığınız bütün əməliyyatları izləyir. Burada sizin bank kredit kartınızın parametrləri, İD nömrəniz, e-mail ünvanınız və s. məlumatlar ola bilər.

Bu təhlükədən qorunmaq üçün sizə yönləndirilən hər hansı saytın və həmin saytda sizdən tələb olunan kredit kartı, bank hesabı və bu kimi məxfi məlumatları yazmağınız tələb olunan sorğulardan şübhələnmək və etibarlı mənbələrdən istifadə etmək tövsiyə olunur.

*Hikmət Məmmədov,*
*polis polkovnik-leytenantı*

**Qədim Azərbaycan torpağı-Zəngəzur mahalında olan yurd yerlərimizi tanımaq hər birimizin mənəvi borcu, tanıtmaq isə, bir mətbu orqan olaraq vəzifəmizdir. Odur ki, “Polis” qəzeti, Musa Urudun “Zəngəzur toponimləri” kitabında yer alan əzəli yurd yerlərimizin adlarını xatırlamağa və xatırlatmağa davam edir. Xatırlayaq ki, Vətən bizdən uzaq düşməsin...**




# ZƏNGƏZUR TOPONİMLƏRİ

**Ağaflı** - Gorus rayonunda kənd adı. D.D.Paqirevin 1913-cü ildə tərtib etdiyi "Qafqazın beşverstlik xəritəsinin adlar göstəricisi" toplusunda kəndin adi Aqaplu şəklində göstərilib. Rayon mərkəzindən 23 kilometr şimal-şərqdə yerləşən kənd XX əsrin əvvəllərində dağıdılıb. Ağaflı kəndin əsasını qoymuş nəslin adı ilə bağlıdır.

**Ağağa** - Qarakilsə (Sisyan) rayonunda kənd adı. Yenə eyni müəllifin adıçəkilən toplusunda kəndin adı Aqay şəklində verilib. Lakin 1727-ci ildə tərtib olunmuş "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə kəndin adı Ağayi kimi çəkilir. Yəni "Ağaya məxsus" mənasındadır. 1918-ci ildə azərbaycanlı əhalisi qovulduqdan sonra kənd dağıdılıb. Xarabalıqları 1988-ci ilə kimi Şıxlar kəndinin yaxınlığında qalırdı.

**Abbas dərəsi** - Gorus rayonundakı kəndin adıdır. Həkəri çayının sağ qolu olan Ağoğlan çayının sağ sahilində, Gorus şəhərinin 16 km-də, dərədə yerləşirdi. Yaxınlıqdakı Abbaslar kəndindən köçmüş ailələr tərəfindən meşəlik ərazidə salınmışdı. XX əsrin 30-cu illərində kollektivləşmə ilə əlaqədar olaraq kənd dağılmışdır.

**Açağu** - Qafan rayon mərkəzindən 7-8 km şimal-qərbdə, Qır qalası dağının ətəyində, Oxçu çayının sol sahilində, şəhərcik və Davud bəy qəsəbələrinin arasında yerləşir. Kəndin adının haça dağ arasında yerləşən kənd mənasında olduğu güman edilir. Açağu kəndinin ətrafındakı bulaq, əkin və örüş yerləri və s. toponimlər təmiz Azərbaycan türkcəsində idi: Böyük taxtdır, Kiçik taxtdır, Çimən dağı, Armudlu, Kəmərə qaya, Novlu çeşmə və s.

1988-ci ilin 4 dekabrında Qafan ermənilərinin təzyiqi ilə açağulular öz yurdlarından didərgin salındılar. 55 evdən ibarət bu azərbaycanlı kəndinin camaatı hazırda Bakı və Sumqayıt şəhərlərində, habelə Abşeron rayonunda məskunlaşıb.

**Afqanlu** - Gorus rayonundakı kənddir. "Qafqazın beş verstlik xəritəsinin ad göstəricisi toplusu"nda kəndin adı Avqanlu şəklində göstərilir. Yerli tələffüz forması Avqanlıdır. 1905-ci ildə tərtib olunmuş Qafqazın hərbi-topoqrafik xəritəsində kəndin adı Aqvanna, yeri isə Maldaş və Tanzaver kəndlərinin arasında göstərilir. Toponimin mənası Qafqaz Albaniyası və alban tayfalarının adı ilə bağlıdır.

XIV əsrdə Qarabağı ələ keçirən Əmir Teymur ona tabe olmaqdan boyun qaçıran, özünü "aqvan" adlandıran 20 min xristian albanı Orta Asiyaya – Qəndəhara köçürmüşdü. Xristian albanlar orada islam dinini qəbul etmiş və hakim qüvvəyə çevrilmişdilər. XVIII əsrdən sonra "Ağvan" etnonimi təhrifə uğrayaraq "Afqan" forması kəsb etdi və "Əfqanıstan" adına çevrildi. Hazırda Əfqanıstanda çoxlu Qarabağ toponimləri də məhz ağvanların (albanların) özləri ilə apardıqları "Qarabağ" adından ibarətdir. 1918-ci ildə kəndin qalan əhalisi qovulmuş və kənd dağıdılmışdır.

# Həyatını təhlükəyə atanlar

## İşğaldan azad edilmiş ərazilərə icazəsiz daxil olmaq istəyirdilər




**Cəbrayıl Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri nəzarət tədbirləri nəticəsində “VAZ” markalı avtomobilin sürücüsü, Cəlilabad rayon sakini Sadiq Qasımov və sərnişin qismində olan həmyerlisi Qurban Məmmədov rayonun Mehdili kəndi istiqamətində hərəkətdə olarkən saxlanılıblar.**

Araşdırmalar zamanı adıçəkilən şəxslərin icazəsiz olaraq işğaldan azad edilmiş ərazilərə keçdiyi müəyyən edilib.

Bundan başqa, Cocuq Mərcanlı kəndinin ərazisindəki xidməti posta yaxınlaşan “Man” markalı avtomobili nəzarət qaydasına uyğun olaraq yoxlamaq üçün “saxla” işarəsi verilsə də sürücü - Füzuli rayon sakini Cavad Cabbarov polis əməkdaşlarının qanuni tələbinə məhəl qoymadan icazəsiz olaraq işğaldan azad olunmuş əraziyə keçməyə cəhd göstərib. C.Cabbarov və sərnişinləri – Bakı şəhər sakinləri-İlham Məmmədov və Məmməd Rüstəmov polis əməkdaşları tərəfindən saxlanılıblar.

Saxlanılan şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokollar tərtib olunub.

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Oktyabrın 6-dan 12-dək olan müddətdə polis əməkdaşları tərəfindən 6 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 3 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini E.Babaxanlı Yasamal rayonu ərazisində saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 6 kiloqramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Nəqliyyatda Baş Polis İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Məmmədli oktyabrın 12-də Sabunçu dəmir yolu stansiyası ərazisində saxlanılmışdır. Ondan ümumilikdə 3240 manat-26 ədəd 100 manatlıq, 5 ədəd 50 manatlıq, 10 ədəd 20 manatlıq, 7 ədəd 10 manatlıq və 24 ədəd 5 manatlıq saxta pul əskinasları aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Xəzər RPİ 3-cü PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il fevralın 17-də F.Abdulovun bank hesabından 700 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ə.Quluzadə saxlanılmışdır.

◆◆◆

**Nərimanov RPİ 17-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 6-da “GM Construction” şirkətinə məxsus 14 min manat dəyərində 665 ədəd dəmir dirəkləri oğurlamaqda şübhəli bilinən oranın mühafizəçisi L.Yaqubov saxlanılmışdır.




◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Xıdırlı kəndində yaşayan F.Göyüşovun evinə baxış zamanı oradan qanunsuz saxladığı “İJ-16” və “Baykal-12” markalı 2 ədəd ov tüfəngi aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Qazax Rayon Polis Şöbəsinə** Canallı kəndindəki evlərin birində 4 nəfərin H.Bayramova zor tətbiq edərək 9400 ABŞ dollarını alması barədə məlumat daxil olmuşdur. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində bu əməli törətməkdə şübhəli bilinən Qazax şəhər sakinləri K.Əhmədov, R.Nəsibov və R.Abdullayev müəyyən edilərək saxlanılmışlar. Araşdırmalarla ev sahibəsi T.Camalovanın da həmin şəxslərlə əlbir olması müəyyən edilmiş və o da saxlanılmışdır.

◆◆◆

**Şəki ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il fevralın 3-də M.Süleymanovun bank hesabından 234 manat oğurlamaqda şübhəli bilinən oğlu saxlanılmışdır.

*Natiq Cavadov*

## Oktyabr ayının 6-dan 12-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 267 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 61 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 293, o cümlədən borclu şəxs qismində axtarışda olan 222 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 17 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 17 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 174 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik